iki sahil
www.ikisahil.az

# Neftçalada balıqçılıq ənənələri yenidən canlanır

## Bu rayonda ilin son Aqrar Biznes Festivalı və Birinci Balıq Festivalı keçirilib

İNNOVATİV YENİLİKLƏR

**Balıqçılıq və akvakultura sahəsinin təbliği, ölkədə balıq ehtiyatlarının dayanıqlılığının təmin edilməsi, aqrar sahədə innovativ yeniliklərin geniş ictimaiyyətə çatdırılması və istehsalçılarla istehlakçılar arasında birbaşa ünsiyyətin qurulması məqsədilə Neftçala rayonunda Birinci Balıq Festivalı keçirilib. Festival Neftçala Rayon İcra Hakimiyyətinin, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin və Balıqçılıq və Akvakultura Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutub.**



Tədbirə Kənd Təsərrüfatı Nazirliyinin məsul şəxsləri, Milli Məclisin deputatları, media nümayəndələri, Neftçala və ətraf rayonlardan sakinlər qatılıblar.

AKVAKULTURA VƏ BALIQÇILIQ TƏSƏRRÜFATLARININ TƏQDİMATI

Festival çərçivəsində Neftçala və ətraf bölgələrdə fəaliyyət göstərən akvakultura və balıqçılıq təsərrüfatları, emal müəssisələri və müxtəlif istehsal, emal və ixrac potensialına malik şirkətlər öz məhsullarını təqdim ediblər. Ziyarətçilər təzə, hisə verilmiş və dondurulmuş balıq məhsullarının geniş çeşidi ilə tanış olmaqla yanaşı, akvakultura prosesində tətbiq olunan müasir texnologiyalar barədə yerindəcə məlumat əldə etmək imkanı qazanıblar.

Festivalın rəsmi açılış mərasimində kənd təsərrüfatı nazirinin müşaviri Zaur Əliyev bölgələrdə təşkil olunan məhsul festivallarının əhəmiyyətindən danışıb. O, bu festivalların regional iqtisadi aktivliyin artırılması, yerli istehsalçıların bir araya gətirilməsi və məhsulların tanıdılması baxımından mühüm rol oynadığını qeyd edib. Zaur Əliyev çıxışında Aqrar Biznes festivallarının kənd təsərrüfatı məhsullarının geniş auditoriyaya çıxarılması, fermer-istehlakçı əlaqələrinin gücləndirilməsi və aqrar innovasiyaların təş-





viqi üçün əlverişli platforma olduğunu vurğulayıb.

Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov festivalın Neftçalanın turizm və iqtisadi potensialının tanıdılmasına verdiyi töhfəni xüsusi qeyd edib. M.Seyidov, həmçinin Prezident İlham Əliyevin Neftçala rayonuna göstərdiyi diqqət və qayğı, eləcə də dövlət başçısının bölgəyə səfərləri barədə festival iştirakçılarına geniş məlumat verib. Bildirib ki, Balıq Festivalı rayonun özünəməxsus təbii sərvətlərinin, xüsusilə də balıqçılıq ənənələrinin daha geniş auditoriyaya çatdırılmasına, eyni zamanda, yerli sahibkarlığın və turizmin inkişafına mühüm stimul verir.

AQRAR İNNOVASİYA MƏRKƏZİNİN FESTİVAL MİSSİYASI

Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov Mərkəz tərəfindən bölgələrdə təşkil olunan məhsul festivallarının məqsədi və iqtisadi-sosial əhəmiyyəti haqqında məlumat verib. Bildirib ki, məhsul festivalları yerli istehsalın stimullaşdırılması, innovativ aqrar texnologiyalarının yayılması və regionların potensialının tanıdılması baxımından mühüm rol oynayır. Anar Cəfərov Balıq Festivalının bölgələrdə keçirilən sayca 19-cu festival olduğunu və tədbirin həm balıqçılıq sektorunun, həm də ümumilikdə aqrar sahənin inkişafına töhfə verəcəyini vurğulayıb.

Balıqçılıq və Akvakultura Mərkəzinin direktoru Ceyhun Əliyev çıxışında bildirib ki, Neftçala rayonu uzun illərdir balıqçılıq və akvakultura üzrə ixtisaslı kadrların hazırlanmasında mühüm rol oynayır. Hazırda bölgədə böyük akvakultura





müəssisələri və nərə balığı yetişdirilməsi üzrə ixtisaslaşmış təsərrüfatlar fəaliyyət göstərir və bu potensial festivalın əhəmiyyətini daha da artırır.



Festival zamanı iştirakçı qurumlar tərəfindən birgə balıq buraxılışı, çəkikimilər, nərəkimilər və digər qiymətli balıq növlərinin akvarium və hovuzlarda nümayişi, müxtəlif balıqların təqdimatı və akvakultura proseslərini əks etdirən texnoloji təqdimatlar həyata keçiriblər. Ziyarətçilərə çökə, nərə, uzunburun və digər balıq növlərinin göstərilməsi ilə yanaşı, USM diaqnostika avadanlıqları, məlumatlandırıcı lövhələr və videoçarxlar vasitəsilə balıq yetişdirilməsinin mərhələləri izah olunub.

MEDİA ÜÇÜN XÜSUSİ PROQRAM

Qeyd edək ki, Festival media nümayəndələri üçün xüsusi mediatur proqramı ilə müşayiət olunub və jurnalistlərə akvakultura təsərrüfatlarının fəaliyyəti, yetişdirilən balıq növləri, tətbiq olunan texnologiyalar və regionun potensialı barədə məlumatlar təqdim və nümayiş etdirilib.



Festival çərçivəsində "Azerbaijan Fish Farm" MMC-yə infotur təşkil edilib. Tur zamanı iştirakçılar müəssisənin istehsalat prosesi, akvakultura sahəsində tətbiq olunan müasir texnologiyalar, nərə balığı və digər balıq növlərinin yetişdirilməsi üzrə aparılan işlərlə yaxından tanış olublar.

"Birinci Balıq" Festivalı ilə paralel olaraq Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə 90-cı yubiley Aqrar Biznes Festivalı keçirilib. Tədbir çərçivəsində müxtəlif kənd təsərrüfatı texnikaları və müasir aqrar texnologiyalar, bitki mühafizə vasitələri, ağıllı suvarma sistemləri, ting və toxum nümunələri sərgilənib.



Startapların iştirakı

GƏNCLƏRİN İNNOVATİV HƏLLƏRİ

Tədbirdə, həmçinin müxtəlif aqrar startapçılar da iştirak edərək innovativ həllərini və tətbiq etdikləri texnologiyaları nümayiş etdiriblər. Gənc startapçılar akvakultura və aqrar texnologiyalar üzrə hazırladıqları layihələri təqdim edib, sahə üzrə yeni həllər, rəqəmsal tətbiqlər və müasir idarəetmə modelləri üzrə ideyalarını paylaşıblar.

Neftçalanın ilk "Balıq Festivalı" bölgənin balıqçılıq irsinin və turizm imkanlarının tanıdılması baxımından uğurlu və rəngarəng bir layihə kimi yadda qalıb.

FESTİVALLARIN ƏSAS MƏQSƏDLƏRİNDƏN BİRİ...

Agrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov jurnalistlərə müsahibəsində bildirib ki, 2025-ci ildən başlayaraq Kənd Təsərrüfatı Nazirliyinin Agrar İnnovasiya Mərkəzi tərəfindən bölgələrdə məhsul festivallarına start verilib: "İl ərzində 19 bölgədə məhsul festivalı keçirilib. Festivalların əsas məqsədi hər bir bölgənin torpaq, hava və iqlim xüsusiyyətlərinə uyğun məhsul ətrafında klasterin formalaşdırılması, bölgənin daxili və xarici təb-



liğinin aparılmasıdır. Bununla yanaşı, keçirilən tədbirlər vasitəsilə emal müəssisələrinin yaradılması da təşviq olunur ki, həmin ərazilərdə ilkin və digər emal prosesləri təmin edilsin. Məhsul festivalları keçirilən bölgələr, o cümlədən Neftçalada baş tutan ilk Balıq Festivalı, gələn ilin mayında Kənd Təsərrüfatı Nazirliyinin təşkil edəcəyi "Caspian Agro" Sərgisində stendlə təmsil olunacaq. "Azərbaycan Bölgələri Pavilyonu" adı altında yaradılacaq bölmədə festival təşkil olunan 19 bölgə iştirak edəcək. Bu isə 400-dən çox şirkət və 40-dan çox dövlətdən qatılan beynəlxalq qurumlarla birbaşa əlaqə yaratmaq, təcrübə mübadiləsi aparmaq imkanı verəcək. Bu gün keçirilən tədbir biznes festivallarının 90-cı yubiley tədbiridir. Bu festivalların keçirilməsində əsas məqsədlərdən biri də təchizatçı şirkətlərlə fermerlər arasında əlaqələrin qurulması və möhkəmləndirilməsidir ki, bu da dövlət-özəl tərəfdaşlığı üçün mühüm platforma yaradır. Tədbirə maraq yüksəkdir və bütün bölgələrdə sakinlər bu festivalları müsbət qarşılayırlar. Bu gün keçirilən festival isə ilin sonuncu - yekun tədbiri olub."



BALIQÇILIQ ƏNƏNƏLƏRİ VƏ YENİ PERSPEKTİVLƏR

Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən Balıqçılıq və Akvakultura Mərkəzinin direktoru Ceyhun Əliyev media nümayəndələrinə məlumat verib ki, Neftçalada keçirilən məhsul yarmarkası Aqrar İnnovasiya Mərkəzi, Balıqçılıq və Akvakultura Mərkəzi və Neftçala Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə təşkil edilib: "Balıq Festivalının məhz Neftçalada təşkili təsadüfi deyil. Neftçala tarixən balıqçılıq ənənələri olan bir rayondur və bu sahə həm rayonun mədəniyyətinin, həm də mətbəxinin vacib hissəsidir. Rayon uzun illərdir balıqçılıq və akvakultura ilə bağlı ixtisaslı kadrların yetişdirilməsində mühüm rol oynayır. Hazırda da bölgədə böyük akvakultura müəssisələri və nərəçilik təsərrüfatları fəaliyyət göstərir. Festivalda müxtəlif şirkətlərin stendləri nümayiş etdirilib, həm Neftçala, həm də ətraf rayonlardan iştirakçılar qatılıb. Tədbir çərçivəsində balıq ehtiyatlarının bərpası məqsədilə balıq buraxılışı da həyata keçirilib. Bu prosesdə həm mərkəzin tabeliyində olan təsərrüfatlar, həm də özəl şirkətlər iştirak ediblər. Ümumilikdə, tədbirin məqsədi balıqçılıq və akvakultura sahəsinin təbliği, ölkədə balıq ehtiyatlarının dayanıqlılığının təmin edilməsi, aqrar sahədə innovativ yeniliklərin geniş ictimaiyyətə çatdırılması və istehsalçılarla istehlakçılar arasında birbaşa ünsiyyətin qurulmasıdır."

**Orxan Vahidoğlu,**
***"İki sahil"***







